

# Azərbaycan Ordusu peşəkarlığına və döyüş qabiliyyətinə görə dünyanın ən güclülərindəndir

***Prezident, Ali Baş Komandan İlham Əliyev hər zaman ordu quruculuğuna, xüsusi diqqət yetirir. Bu da təbiidir. Çünki ərazi bütövlüyünün bərpası məsələsi torpaqları işğala məruz qalmış dövlətlər üçün tarix boyu ən müqəddəs vəzifələrdən biri olub. Bu vəzifənin yerinə yetirilməsi üçün, ilk növbədə, ordunun möhkəmləndirilməsi, müasir silah-sursatla təchizatı önəmli məsələlərdəndir. Müdrik Ali Baş Komandan və qüdrətli ordu dövləti qaliblər sırasına çıxarır, onun xalqını daha alnıaçıq, üzüağ edir. Belə bir qürur doğuran taleyi indi Azərbaycan yaşayır.***

Azərbaycan Ordusu peşəkarlığına və döyüş qabiliyyətinə görə dünyanın ən güclü orduları siyahısındadır. İstər Vətən müharibəsinə qədər, istərsə də qələbəmizdən sonra ordu quruculuğunun beynəlxalq standartlara uyğunlaşdırılması prioritet vəzifə kimi qarşıya qoyulub. Hazırda respublikamızın bir çox ərazilərində yeni hərbi hissələr, hərbi şəhərciklər yaradılır.

Silahlı qüvvələrimizin məişət-mənzil problemlərinin həll edilməsi də həmişə möhtərəm Prezidentimizin diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Hərbi işdə 20 il qüsursuz xidmət etmiş hərbçilərə mənzillər verilir. Bu günə qədər 2200 hərbçimuz dövlət tərəfindən mənzillərlə təmin edilmişdir. Bu istiqamətdə işlər davam etdirilir. Həmin qayğının nəticəsidir ki, Azərbaycan Ordusu döyüş meydanında öz sözünü dedi.

Müharibə başa çatdıqdan sonra da, orduya ayrılan xərclər azaldılmayıb, əksinə, daha da artırılıb. Şanlı qələbədən sonra ordumuz yeni müasir silahlarla təchiz olunmaqdadır. Hazırda ordumuz ölkəmizdə istehsal olunmuş dünya standartlarına cavab verən ən dəqiq və müasir silah-sursatla təmin edilir. Bununla bərabər hərbçilərimizin maaşları da artırılmışdır. Göründüyü kimi, ordu quruculuğu prosesi daimidir. Ölkəmizdə yüksək təlim keçmiş, peşəkar hərbçilərdən ibarət yeni xüsusi briqadalar yaradılmaqdadır. Ən igid, mərd, dözümlü oğullarımız həmin briqadalarda xidmət keçəcəklər. Bu, bir daha təsdiqləyir ki, hərbçilərimiz istənilən şəraitdə düşməni məhv etmək bacarığına qadirdir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev işğaldan azad olunmuş Xocavənd rayonunun Hadrut qəsəbəsində yeni yaradılmış briqadaya ötən ilin sonunda döyüş bayrağını təqdim etdi və hərbçilərimizin nümunəvi döyüş bacarıqları ilə yaxından tanış oldu. Əsgər və zabitlərimizin şücaətinə baxdıqca hər kəsdə qürur hissi yaranır. Azərbaycan hərbçilərinin igidliyinə, dözümlülüyünə heyran qalırsan. Belə igidləri olan xalqı heç bir düşmən məğlub edə bilməz.

Ali Baş Komandan cənab İlham Əliyev hərbçilər qarşısında çıxış edərək, İkinci Qarabağ müharibəsində ordumuzun göstərdiyi qəhrəmanlıqdan danışdı və Hadrut qəsəbəsinin işğaldan azad edilməsini müharibədəki qələbəmizin dönüş nöqtəsi olduğunu vurğuladı. Doğrudan da, Hadrut qəsəbəsinin azad edilməsi Ermənistan ordusunda böyük vahiməyə səbəb oldu. Silahlı qüvvələrimizin məhz bu uğurlu əməliyyatından sonra Ermənistan ordusunda kütləvi fərarilik başladı. Sonradan ermənilərin özləri də etiraf etdilər ki, onların ordusunda 10 mindən çox fərari olmuşdur.

Prezident – xalq – ordu vəhdəti düşməni darmadağın etdi. Bu həmrəylik Vətən müharibəsində xalqımızı öz lideri İlham Əliyevin ətrafında bir amal, bir müqəddəs ideya uğrunda yumruq kimi birləşdirdi. Bu tarixi qələbənin qazanılmasında əsas amillərdən biri ordumuzun qəhrəmanlığı oldu. Bu gün yenə də ordu ğuruculuğunun inkişafı prioritet vəzifələrdən biridir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun professoru***